İKİ SAHİL
www.ikisahil.az

TƏHLİL

AZƏRBAYCAN-İSRAİL MÜNASİBƏTLƏRİ YENİ GEOSİYASİ MƏRHƏLƏDƏ

# Siyasi etimaddan strateji tərəfdaşlığa

**İsrailin xarici işlər naziri Gideon Saarın Azərbaycana rəsmi səfəri Bakı ilə Təl-Əviv arasında formalaşan strateji tərəfdaşlığın növbəti mühüm mərhələsi kimi qiymətləndirilir. Səfər çərçivəsində keçirilən yüksək səviyyəli görüşlər, aparılan müzakirələr və imzalanan razılaşmalar Azərbaycan-İsrail münasibətlərinin təkcə siyasi deyil, eyni zamanda, iqtisadi, enerji, təhlükəsizlik və humanitar sahələr üzrə ardıcıl şəkildə dərinləşdiyini bir daha nümayiş etdirdi. Regional və qlobal proseslərin mürəkkəbləşdiyi bir dövrdə bu səfər qarşılıqlı etimada əsaslanan əməkdaşlığın strateji mahiyyətini ön plana çıxardı.**




Xarici işlər naziri Ceyhun Bayramovla onun israilli həmkarı Gideon Saar arasında Bakıda keçirilən geniştərkibli görüş Azərbaycan-İsrail münasibətlərinin artıq ayrı-ayrı sahələr üzrə əməkdaşlıq çərçivəsindən çıxaraq dərin strateji tərəfdaşlıq mərhələsinə daxil olduğunu aydın şəkildə ortaya qoydu. Görüş zamanı siyasi dialoq, regional və beynəlxalq təhlükəsizlik məsələləri, enerji əməkdaşlığı, iqtisadi əlaqələrin perspektivləri və humanitar münasibətlər ətrafında aparılan müzakirələr göstərdi ki, tərəflər mövcud münasibətləri qorumaqla kifayətlənmir, onları yeni çağırışlar və qlobal proseslər fonunda daha da möhkəmləndirmək niyyətindədir. Bu görüş son illər ərzində ardıcıl şəkildə formalaşan qarşılıqlı etimadın və yüksək səviyyəli siyasi anlaşmanın məntiqi davamı kimi dəyərləndirilir.

### İQTİSADİ ƏLAQƏLƏR REAL GÖSTƏRİCİLƏRLƏ MÖHKƏMLƏNİR

Diplomatik təmaslarla paralel olaraq iqtisadi əməkdaşlıq Azərbaycan-İsrail münasibətlərinin aparıcı istiqamətlərindən birinə çevrilib. Azərbaycan İsraildə səfirliyini açdıqdan sonra iqtisadi əlaqələrin yüksələn xətt üzrə inkişaf etməsi iki ölkə arasında institusional mexanizmlərin daha da gücləndiyini göstərir. 2025-ci ildə mülki ticarət dövriyyəsinin təxminən 50 faiz artaraq 360 milyon dollardan çox olması bu əməkdaşlığın artıq real iqtisadi göstəricilərlə müşayiət olunduğunu təsdiqləyir.

Azərbaycanın əlverişli coğrafi mövqeyi və nəqliyyat-logistika imkanları İsrail biznes dairələrində xüsusi maraq doğurur. Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən strateji marşrutların üzərində yerləşən Azərbaycan İsrail şirkətləri üçün təkcə ikitərəfli əməkdaşlıq platforması deyil, eyni zamanda, Mərkəzi Asiya və daha geniş regiona çıxış imkanı yaradan mühüm qapı rolunu oynayır. Gideon Saarın bu məqamı xüsusi vurğulaması Azərbaycanın regional iqtisadi arxitekturada artan rolunun İsrail tərəfindən də yüksək qiymətləndirildiyini göstərir.

Nəqliyyat və aviasiya sahəsində əməkdaşlıq da münasibətlərin inkişafında mühüm yer tutur. Bakı ilə Təl-Əviv arasında həyata keçirilən birbaşa uçuşlar iqtisadi, turizm və humanitar əlaqələrin genişlənməsinə real töhfə verir. Azərbaycanın milli aviadaşıyıcısı AZAL-ın bu uçuşları davam etdirməsi ölkələrimiz arasında mövcud olan qarşılıqlı etimadın və siyasi iradənin göstəricisi kimi dəyərləndirilir. Birbaşa hava əlaqələri biznes dairələri üçün operativ əlaqələr qurmağa, turizm axınını artırmağa və xalqlarımız arasında təmasları intensivləşdirməyə imkan yaradır.

Turizm və xalqlararası təmaslar Azərbaycan-İsrail münasibətlərinin mühüm tərkib hissəsinə çevrilib. 2025-ci ildə 60 min israilli turistin Azərbaycana səfər etməsi ölkəmizin təhlükəsiz, tolerant və cəlbedici turizm məkanı kimi qəbul edildiyini təsdiqləyir. Gideon Saarın bu rəqəmlərin gələcək illərdə daha da artacağına dair nikbin mövqeyi tərəflərin turizm sahəsində böyük potensial gördüyünü göstərir. Qarşılıqlı səfərlərin artması yalnız iqtisadi deyil, eyni zamanda, mədəni və ictimai əlaqələrin möhkəmlənməsinə xidmət edir.

İqtisadi əməkdaşlıq çərçivəsində enerji sahəsi xüsusi strateji əhəmiyyət daşıyır. SOCAR-ın İsrailin Aralıq dənizindəki Tamar qaz yatağında 10 faizlik pay alması da Azərbaycan enerji sektorunun beynəlxalq miqyasda fəallığının və rəqabət qabiliyyətinin göstəricisidir. Gideon Saar bu addımı Azərbaycanın uzaqgörən xarici və iqtisadi siyasətinin nümunəsi kimi qiymətləndirərək, strateji tərəfdaşlıqda qarşılıqlı etimadın real iqtisadi nəticələr verdiyini vurğulayıb.

Səfər çərçivəsində iqtisadiyyat naziri Mikayıl Cabbarovun Gideon Saar ilə keçirdiyi görüş ölkələrimiz arasında iqtisadi əlaqələrin daha sistemli və institusional səviyyədə inkişaf etdirilməsinə yönəlib. Görüş zamanı sənaye, kənd təsərrüfatı, yüksək texnologiyalar, enerji, əczaçılıq və investisiya sahələrində əməkdaşlığın genişləndirilməsi imkanlarının müzakirəsi göstərir ki, tərəflər iqtisadi münasibətləri şaxələndirmək və davamlı etmək niyyətindədir. Birgə investisiya layihələrinin icra vəziyyətinin nəzərdən keçirilməsi isə bu əməkdaşlığın artıq praktik mərhələyə keçdiyini sübut edir.

### Biznes Forumu: PRAKTİKİ ƏMƏKDAŞLIQ PLATFORMASI

Bakıda keçirilən Azərbaycan-İsrail Biznes Forumu ikitərəfli münasibətlərin konkret iqtisadi platforma üzərində inkişaf etdiyini nümayiş etdirdi. Forumda sənaye, tikinti, kənd təsərrüfatı, texnologiyalar, su ehtiyatlarının idarə olunması, nəqliyyat-logistika, kibertəhlükəsizlik, bankçılıq və turizm sahələrində fəaliyyət göstərən 100-dən çox şirkət nümayəndəsinin iştirakı biznes dairələri arasında birbaşa əlaqələrin qurulmasına geniş imkan yaratdı. B2B və B2G formatında keçirilən görüşlər tərəfdaşlığın praktik mexanizmlərlə möhkəmləndirildiyini göstərdi.

Forum çərçivəsində Azərbaycan Respublikası Sahibkarlar Təşkilatları Milli Konfederasiyası ilə İsrail İstehsalçılar Assosiasiyası arasında Anlaşma Memorandumunun imzalanması iqtisadi əməkdaşlığın hüquqi və institusional əsaslarının gücləndirilməsi baxımından mühüm addım kimi qiymətləndirilir. Bu sənəd gələcəkdə birgə layihələrin həyata keçirilməsi, ticarət dövriyyəsinin artırılması və biznes əlaqələrinin sistemli şəkildə inkişaf etdirilməsi üçün əlavə imkanlar yaradır.

Ələt Azad İqtisadi Zonası və Azərbaycanın investisiya potensialı barədə təqdimatlar ölkəmizin Xəzər regionunda strateji biznes mərkəzi kimi rolunu bir daha ön plana çıxardı. Xarici investorlar üçün yaradılan əlverişli mühit, vergi və gömrük güzəştləri, logistika imkanları İsrail biznes dairələri tərəfindən də maraqla qarşılanır. Bu amillər Azərbaycan-İsrail iqtisadi tərəfdaşlığının orta və uzunmüddətli perspektivdə daha da genişlənəcəyini deməyə əsas verir.

### DAYANIQLI TƏRƏFDAŞLIQ VƏ GƏLƏCƏYƏ BAXIŞ

Ümumilikdə, İsrailin xarici işlər naziri Gideon Saarın Bakıya səfəri Azərbaycan-İsrail münasibətlərinin yeni, daha dərin və hərtərəfli mərhələyə qədəm qoyduğunu nümayiş etdirir. Siyasi etimad, iqtisadi dinamika, enerji və təhlükəsizlik əməkdaşlığı, eləcə də humanitar əlaqələr bu tərəfdaşlığı dayanıqlı edən əsas sütunlar kimi çıxış edir. Mövcud reallıqlar göstərir ki, Azərbaycan və İsrail qarşılıqlı maraqlara əsaslanan bu münasibətləri gələcəkdə də regional və qlobal proseslər fonunda daha da gücləndirmək əzmindədir.

Nigar Orucova,
*"İki sahil"*